# Peşəkarlıq da var, qətiyyət və cəsarət də…

## Bərdə Rayon Polis Şöbəsi cinayətkarlığa qarşı mübarizədə ciddi uğurlar əldə edib



***… Əməliyyat məlumatının dəqiqliyi şübhə doğurmurdu. Bununla yanaşı, Bərdə Rayon Təhsil Şöbəsi, digər əlaqədar təşkilatlarla əlaqə saxladılar. Hər yerdən də eyni cavab aldılar: Göstərilən ünvanda –Həsənqaya kənd sakini Əziz Qasımovun həyətində heç bir rəsmi təhsil ocağı yoxdur.***

Məsələnin qəribə və təəccüblü tərəfi də elə bu idi – kənddə ayrıca məktəb olduğu halda, əlavə bir məktəb, özü də şəxsi evdə məktəb açmağa, şagird və müəllim cəlb etməyə, dərs keçməyə nə hacət? Ona görə də əməliyyat işçiləri binaya xüsusi həvəs və maraqla daxil oldular. Lakin elə ilk andaca bu hisslər təəccüb və heyrətə çevrildi. Vəziyyətlə ətraflı tanışlıq isə sözün əsl mənasında, hiddət doğurdu. Məlum oldu ki, məktəbin "müəllimi" elə bu evin sahibi Əziz Qasımov, "şagirdləri" isə ətraf kəndlərdən, hətta kənar rayonlardan cəlb edilmiş, özü də müxtəlif yaşlı insanlardır. Məsələn, Tərtər rayonundan 6 nəfər, Goranboydan 4 nəfər, cəmi 31 nəfər... "Şagirdlər" arasında bir nəfər azyaşlı da vardı.

Bəs onlara nə öyrədirdilər, kimdən və nədən danışırdılar? Məsələnin mahiyyəti də elə burdadır. Özü də bunun üçün xüsusi axtarışa, dindirməyə ehtiyac olmadı. Belə ki, istifadə olunan bütün əyani vəsait, necə deyərlər, göz qabağında idi: vahabi cərəyanına aid 63 nüsxə dini ədəbiyyat, 27 broşür, müxtəlif qəzet, jurnal yazıları və s. Məqsəd və istiqamət də məlum idi – vəhabiliyin təbliği, öyrənilməsi və yayılması.

… 100 ədəd kibrit qutusuna qablaşdırılmış 473,5 qram olan marixuana, 1 ədəd 7,62 millimetr, 3 ədəd 5,45 millimetr çaplı avtomat gülləsi… Bütün bunlar rayonun Zümürxan kənd sakini Ehtiram İsayevin evində axtarış zamanı müsadirə olunan maddi sübutlardır. Bundan başqa, saxlanılan zaman onun üzərinə baxış keçirilmiş və 6,06 qram marixuana tapıldı. Əməliyyat məlumatının dəqiqliyi, operativ hərəkət, peşəkarlıq burda da öz sözünü dedi: Ehtiram İsayev iş başında, alverin şıdırğı yerində yaxalandı. Başqa sözlə desək, etirafdan başqa ayrı əlacı qalmadı.

Biz burada Bərdə Rayon Polis Şöbəsinin son vaxtlar həyata keçirdiyi uğurlu əməliyyatlardan yalnız ikisi haqqında qısa məlumat verdik. Bu siyahını uzada da bilərdik. Lakin məqsədimiz təkcə bu deyil. Ən vacibi odur ki, qısa müddət ərzində rayonda cinayətkarlığa qarşı mübarizə, ictimai qaydalar və ümumi təhlükəsizliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində ardıcıl və sistemli iş qurulmuşdur. Digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə, birgə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində bir sıra ciddi uğurlar əldə edilmişdir.

Bu gün Bərdə Rayon Polis Şöbəsində idarəçilik və təşkilatçılıq fəaliyyətinin, nəzarət mexanizminin, normativ hüquqi bazanın müasir tələblər baxımından təkmilləşdirilməsi, daxili təhlükəsizliyin möhkəmləndirilməsi, şəxsi heyətin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə ciddi tədbirlər hazırlanıb həyata keçirilir. Qanunçuluğa, xidməti, icra və uçot-qeydiyyat intizamına əməl edilməsinə tələbkarlıq artmışdır. Rayon ərazisində cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmini, axtarışda olan şəxslərin müəyyənləşdirilərək tapılması sahəsində maraq doğuran müsbət



təcrübə toplanmışdır.

Heç uzağa getməyək. Cari ilin nəticələrini əks etdirən səciyyəvi fakt və rəqəmlər son vaxtlar polis şöbəsinin fəaliyyətində yaranmış dönüşü qiymətləndirmək baxımından önəmlidir. Belə ki, şəxsi heyət qanunvericilikdə müəyyən edilmiş vəzifələrini əzmlə yerinə yetirmiş, rayonda daxili sabitlik dönməz xarakter almışdır. Əvvəlki illərdə baş vermiş cinayətlərin açılması təmin edilmiş, əməliyyat şəraiti bütövlükdə nəzərdə saxlanılmışdır.

Ümumiyyətlə, 2017-ci ilin birinci rübündə ümumi cinayətlərin açılma faizi 97,1 olmuşdur. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə xeyli çoxdur. Həmin dövrdə rayon üzrə 76 (2016-cı ilin 3 ayı ərzində 113) cinayət hadisəsi baş vermiş, onlardan 66 (2016-cı ilin 3 ayı ərzində 94) cinayətin açılması təmin olmuş, 2 (2016-cı ilin 3 ayı ərzində 4) cinayət isə bağlı qalmışdır. Naməlum şəraitdə 37 (2016-cı idin 3 ayı ərzində 53) cinayət hadisəsi baş vermiş, onlardan 38-nin (2016-cı ilin 3 ayı ərzində 33) açılması təmin olunmuşdur. Gizli baş vermiş cinayətlərin açılması 97,4 faiz (2016-cı ilin 3 ayı ərzində 91,7 faiz) təşkil etmişdir. 22 nəfər şəxs axtarışda olmuş, onlardan da 11 cinayətkar tutularaq aidiyyatı üzrə təhvil verilmişdir. Axtarışda olan şəxslərin tutulması 50 faiz (2016-cı ilin 3 ayı ərzində 45,8 faiz) olmuşdur.

1 fakt qəsdən sağlamlığa ağır xəsarət yetirmə, 12 fakt qəsdən yüngül xəsarət yetirmə, 1 fakt ehtiyatsızlıqdan sağlamlığa zərər vurma, 7 fakt dələduzluq cinayəti, 13 fakt oğurluq, 6 fakt yol-nəqliyyat hadisəsi, 17 fakt qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri hazırlama, istehsal və əldə etmə, saxlama, göndərmə və ya satma, 1 fakt qəbir üzərində təhqiredici hərəkətlər etmə cinayətləri baş vermiş və onların hamısı isti izlərlə açılmışdır.

Rayon ərazisində keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətkar qrup ifşa edilmiş, 6 dövlət əmlakının oğurluğu cinayətinin açılması təmin olunmuşdur. Bundan başqa, ötən illərdən bağlı qalmış 2 oğurluğun da üstü açılmışdır.

Bərdə Rayon Polis Şöbəsinin fəaliyyətində diqqəti daha çox cəlb edən və əhali arasında dərin razılığa səbəb olan məsələlərdən biri də narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı ardıcıl və barışmaz mübarizə aparılmasıdır. O da həqiqətdir ki, əvvəllər Bərdədə narkomaniya baş alıb gedirdi, dözülməz vəziyyət yaranmışdı. Ətraf rayonlardan, hətta Bakıdan da "ağ ölüm" daşıyıcıları bura üz tutur, Bərdədə özlərini daha rahat və təhlükəsiz hiss edirdilər. Yaranmış vəziyyət, əlbəttə, rayon ağsaqqallarını, ziyalıları, ictimaiyyətin sağlam qüvvələrini ciddi narahat edirdi. Ona görə də son vaxtlar bir-birinin ardınca hazırlanan və uğurla həyata keçirilən axtarış-əməliyyat tədbirləri əhali arasında dərin razılıq hissi ilə qarşılanır. Belə ki, bu il rayon ərazisində qanunsuz olaraq narkotik vasitələri əldə etmə, saxlama və ya satma cinayətləri üzrə 17 fakt (2016-cı ilin 3 ayı ərzində 9 fakt) qeydə alınmışdır. Həmin faktlar üzrə müxtəlif adda çəkisi 535,815 qram) narkotik vasitə dövriyyədən çıxarılmışdır.

Vətəndaşların müraciətlərinə baxılması və qəbulu, şəxsi heyətin qanunçuluğa, etik normalara və davranış qaydalarına ciddi əməl etməsi, xidməti anda sədaqət ruhunda tərbiyə olunması istiqamətində kompleks tədbirlər ardıcıllıqla davam etdirilmiş, onların qaldırdıqları məsələlərin əksəriyyəti yerlərdə müsbət həllini tapmışdır. İndi burada əhali ilə səmimi, qarşılıqlı münasibətlər formalaşmışdır. Vətəndaşlar rayon polis şöbəsinə təkcə hər hansı cinayət işi ilə bağlı müraciət etmirlər. Ağsaqqal da, azyaşlı da, gənc də onu düşündürən, narahat edən məsələ barədə soruşsa, məsləhət ala bilər. Belə qarşılıqlı əlaqə isə, heç şübhəsiz ki, ehtimal olunan cinayət hadisələrinin qarşısını vaxtında almağa kömək edir, etibar və inam yaradır.

Xidməti fəaliyyətdə şəffaflıq, obyektiv və prinsipial münasibət isə onunla nəticələnmişdir ki, vətəndaşların şikayətinin, ərizə və müraciətlərin sayı azalmışdır. Belə ki, 2017-ci ilin 3 ayı ərzində şöbə rəhbərliyi tərəfindən 240 nəfər vətəndaş qəbul edilmişdir. Onların 127 nəfərinin müraciəti təmin olunmuş, 113 vətəndaşa isə müvafiq izahat verilmişdir.

Əlbəttə, cinayət hadisəsi baş verəndən sonra onun isti izlərlə açılması polisin əsas vəzifələrindəndir. Ancaq daha yaxşı olar ki, cinayət, ümumiyyətlə, baş verməsin, yaxud mümkün qədər az baş versin. Burada isə qabaqlayıcı tədbirlərin, ictimaiyyətlə sıx əlaqə qurmağın, hüquq mövzusunda görüş və söhbətlərin əhəmiyyəti çox böyükdür. Bərdə təcrübəsi bir daha sübut edir ki, işi məhz bu cür təşkil etməklə cinayət hadisəsinin böyük bir qisminin qarşısını almaq mümkündür. Bir vacib cəhəti də qeyd etmək yerinə düşərdi. Bərdə rayonunda hüquq-mühafizə orqanlarının yekdil, əlbir və qarşılıqlı fəaliyyəti mövcuddur. Bu isə aydın məsələdir ki, sağlam mənəvi-psixoloji mühitin formalaşmasına, cinayətkarlığa qarşı daha təsirli və effektiv mübarizə aparılmasına səbəb olur.

Bərdə Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlqar Məmmədov təcrübəli əməliyyat işçisidir. Polis orqanlarında müxtəlif rəhbər vəzifələrdə çalışıb. Yaşından, mövqeyindən asılı olmayaraq hamı ona təkcə polis rəisi kimi yox, həm də sadə, halal və ədalətli bir insan kimi baxır. Düzdür, son vaxtlar polis şöbəsində cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydaların, ümumi təhlükəsizliyin, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində xeyli müsbət təcrübə toplamışdır. Bununla yanaşı, polis rəisi əldə edilmiş uğurlarla əslə kifayətlənmir. Daha çox qarşıda duran vəzifələrdən, görüləcək işlərdən danışır:

– Həyatımızın bütün sahələrində olduğu kimi, hüquq-mühafizə orqanlarında da əldə edilmiş böyük uğurlar, həyata keçirilən islahatlar xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Olduqca fərəhlidir ki, ulu öndərin müəllifi və yaradıcısı olduğu həmin strateji xətti bu gün ölkə Prezidenti İlham Əliyev böyük qətiyyət və müdrikliklə davam etdirir. Əgər Bərdə Rayon Polis Şöbəsində cinayətkarlığa qarşı mübarizə sahəsində müəyyən uğurlar qazanılmışdırsa bu, heç şübhəsiz ölkə rəhbərinin fərman və sərəncamlarından, dövlət proqramlarından, DİN-nin əmr, göstərilmiş və kollegiya qərarlarından irəli gələn vəzifələrinin icrasına şöbə rəhbərliyinin xüsusi diqqəti və şəxsi heyətin xidməti vəzifələrinə məsuliyyətlə yanaşmasının nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Polis həm qətiyyətli olmalıdır, cinayətkarlara qarşı barışmaz, sərt olmalıdır, eyni zamanda, insanlara qarşı çox mədəni, mülayim olmalıdır. Kobudluğa yol verməməlidir. Çünki biz hamımız, dövlət işində işləyən insanlar xalqa xidmət edirik. Bizi ona görə sevirlər, ona görə etibar edirlər ki, biz öz tərəfimizdən qərarların qəbul olunması ilə, öz hərəkətimizlə, öz nümunəmizlə xalqa xeyir gətirək. Onun problemlərini həll edək, dərdlərini dinləyək, ona kömək edək. Polis işçiləri xalqla birbaşa təmasda olan insanlardır. Ona görə bu, mənim əsas tələbimdir: həm qətiyyət olmalıdır, həm də polis işçiləri özlərini çox mədəni şəkildə aparmalıdırlar. Belə olan halda, siz Azərbaycan xalqının daha da böyük rəğbətini qazanacaqsınız".

Böyük inam və qətiyyətlə deyə bilərəm ki, Bərdə Rayon Polis Şöbəsinin şəxsi heyəti digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə qarşılıqlı əlaqə şəraitində bundan sonra da qüvvə və səylərini ictimai asayişin yüksək səviyyədə qorunmasına səfərbər edəcək, cinayətkarlığa qarşı mübarizəni daha da gücləndirəcək, insan hüquq və azadlıqlarının, vətəndaşların qanuni mənafelərinin etibarlı şəkildə təmin edilməsi ilə bağlı ölkə başçısının qarşıya qoyduğu tapşırıqları, tələb və tövsiyyələri böyük məsuliyyət hissi ilə yerinə yetirəcək, vətənə, xalqa və dövlətə layiqincə xidmət edəcəkdir.

Yeri gəlmişkən, mən öz adımdan, şöbəmizin şəxsi heyəti adından respublikadaxili işlər naziri, general-polkovnik Ramil Usubova, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayevə dərin minnətdarlığımızı bildirirəm. İşimizin daha yaxşı təşkili üçün nə vaxt nə xahiş etmişiksə dərhal öz müsbət həllini tapıb. Belə diqqət və qayğı isə, əlbəttə, bizi ruhlandırır, daha yaxşı işləməyə, cinayətkarlığa qarşı ardıcıl və barışmaz mübarizə aparmağa çağırır.

… Üç min illik tarixi olan qədim Bərdənin abad və yaraşıqlı küçələri ilə addımlayırıq. Son illər tikilmiş müxtəlif təyinatlı binalar, park və xiyabanlar, yaşıllıq zolaqları, bulaqlar, fəvvarələr … adamın qəlbində xoş, unudulmaz duyğular yaradır. Bu qədim diyar tanınmaz dərəcədə dəyişmiş və gözəlləşmişdir. Şəhər sakinləri, qonaqlar istirahət edir, dincəlir, çələng kimi hörülmüş güllərə, çiçəklərə, şəhəri iki yerə bölən Tərtər gölünə heyranlıqla tamaşa edir, bu gözəlliyi, bu müasirliyi yaradanlara "əhsən" deyə pıçıldayırlar…

*Ziyəddin SULTANOV,*
*"Xalq qəzeti"nin*
*bölgə müxbiri*